# MA Latex®

## YAPIŞMA MÜQAVİMƏTİNİ VƏ ELASTİKLİYİ ARTIRAN HİDROİZOLYASİYA QARIŞIĞI




**Məhsul haqqında**
Emulsiya polimeri əsaslı, mexaniki möhkəmliyi, elastikliyi, yapışma gücünü, sukeçirməzliyi artıran, çatlamanın və aşınmanın qarşısını alan maddələri özündə əks etdirən, istifadəyə hazır məhsuldur.

**İstifadə sahələri**
Bu hidroizolyasiya qarışığından:
• betonun;
• suvağın;
• döşəmə suvağının;
• **MATON** və **Filkret** təmir qarışıqlarının və ya digər oxşar məhsulun mexaniki möhkəmliyinin, elastikliyinin, yapışma gücünün və sukeçirməzliyinin artırılmasında;
• çatlamanın və aşınmanın qarşısının alınmasında istifadə olunur.

**Üstünlükləri**
• qopub-tökülmə hallarına və sonradan çatların əmələ gəlməsinə yol vermir;
• məhsuldarlığı artırır;
• materialların sərfinə qənaət edir.

**İstifadə qaydaları**
***Səthin hazırlanması.*** Səth yapışmağa mane olan qalıqlardan təmizlənməlidir.

***Qarışığın hazırlanması.*** MA Latex məhlulunu istifadədən əvvəl çalxalayın. Səthin sukeçirməzliyini təmin etmək üçün suvaq-hörgü qarışıqlarına MA Latex hidroizolyasiya məhlulunu su ilə 1/1- 1/4 (MA Latex/su ) nisbətində qarışdırın. Çatların və sukeçmənin qarşısını almaq üçün kafel-metlax yapışdırıcılarına, təmir harcı və s. qarışıqlara MA Latex hidroizolyasiya məhlulunu su ilə 1/1-1/4 (MA Latex/su) nisbətində qatın.

***Tətbiqi.*** Hazırlanmış qarışığı təlimata uyğun formada istifadə edin.

**Texniki göstəricilər**

| | |
|---|---|
| Rəngi | ağ rəngli maye |
| İstifadə temperaturu | $+5^0$ C – $+32^0$ C |
| Qarışığın sərfi:<br>MA Latex / su | 1/1; 1/4 |
| Qablaşdırma | 1; 4 və 10 litrlik plastik bidonlarda |

**Sərfiyyat**
İstifadə olunduğu məhsuldan asılı olaraq sərfiyyatı dəyişkəndir.

**Saxlama müddəti və qaydası**
Açılmamış qablarda quru şəraitdə 12 ay saxlanıla bilər.

**Xəbərdarlıqlar**
• məhsuldan istifadə zamanı işin və işçinin təhlükəsizliyi qaydalarına riayət olunmaqla müvafiq iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edin;
• məhsulun allergiya və qaşınma kimi təsirlərini nəzərə alaraq, qarışığın dəriyə və gözə təmas etməməsinə diqqət edin, dəriyə və gözə təmas olarsa, dərhal çoxlu miqdarda su və sabunla yuyun;
• əgər məhsulun udulması halı baş verərsə, dərhal həkimə müraciət edin;
• məhsulun istifadə edildiyi yerlərə ərzaq qoymayın;
• uşaqların əli çatmayan yerlərdə saxlayın;
• yuxarıdakı göstəricilər $+23^0$C$\pm 2^0$C temperatur və 50%±5% rütubətli şəraitdə aparılan sınaqlar nəticəsində əldə olunmuşdur. Şəraitdən asılı olaraq bu göstəricilər dəyişə bilər.

**Zəmanət və texniki dəstək**
• texniki göstəricilərdə qeyd edilmiş məlumatlar elmi və təcrübi biliklərə əsaslanır;
• "Mətanət A" şirkəti məhsulun müvafiq texniki şərt və dövlət standartlarına uyğunluğuna zəmanət verir;
• şirkətin mütəxəssislərinin rəhbərliyi altında görülən işlər istisna olmaqla, digər istifadəçilər tərəfindən təlimatdan kənar istifadə zamanı yarana biləcək problemlərə görə "Mətanət A" şirkəti məsuliyyət daşımır;
• şirkət elmi-texniki inkişafla bağlı məhsulda dəyişiklik etmə hüququnu özündə saxlayır;
• texniki dəstək və ya daha geniş məlumat almaq üçün "Mətanət A" şirkətinə müraciət edin!